Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi
birbank

# RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 8
# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1-4-cü sualları mətnə əsasən cavablandırın.**

## COP29 – İqlim diplomatiyasında dönüş nöqtəsi

BMT-nin iqlim dəyişiklikləri üzrə çərçivə konvensiyasının tərəflər konfransının 29-cu sessiyası (COP29) Azərbaycanda, paytaxt Bakıda uğurla yekunlaşdı.

Azərbaycan COP29-a sədrlik edən ölkə kimi yüksək peşəkarlıq və fədakarlıq göstərdi. 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə hər il 300 milyard ABŞ dolları məbləğində yardım göstərilməsi haqda yekun qərar qəbul olundu. Müzakirələr ilkin olaraq 200 milyard dollar məbləği ətrafında gedirdi. Ancaq Azərbaycanın uğurlu moderatorluğu ilə bu rəqəm 300 milyard dollara qaldırıldı. Azərbaycan uğurlu nəticəyə əvvəlcədən də əmin idi. Azərbaycan Prezidenti İlham Əliyev COP29-un liderlər sammitindəki çıxışında bu əminliyi aydın və dəqiq ifadə etmişdi.

Prezident demişdi: "*Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu təkcə coğrafiya ilə bağlı deyil.* Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".

Azərbaycan dövlətinin başçısı bu dəfə də özünün və ölkəsinin üzərinə düşən missiyanı yerinə yetirirdi. O, Azərbaycanın çoxtərəfli formatda daha bir uğura ev sahibliyi edəcəyinə inanmışdı, öz xalqını da bu gerçəyə inandırmış, dövlətin bütün resurslarını səfərbər etmişdi.

Prezident tədbirin yekunu ilə bağlı rəsmi sosial şəbəkə hesabındakı paylaşımında qeyd edir: "Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq. Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu. "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək **qlobal** iqlim fəaliyyətinə müsbət təsir göstərəcək."

**1. Mətnə əsasən, hansı suala cavab tapmaq mümkün deyil?**

A) COP29 tədbirində nə qədər iştirakçı qeydiyyatdan keçmişdir?
B) 2035-ci ilə qədər neçə ölkəyə yardım veriləcəkdir?
C) COP29 tədbiri necə təşkil olunmuşdur?
D) Tədbir hansı şəhərdə keçirilmişdir?
E) İnkişaf etməkdə olan ölkələrə ayrılan vəsait hansı valyuta ilədir?

**2. Mətndə hansı məlumat öz əksini tapmır?**

A) Liderlər sammiti COP29 konfransının ilk günündə keçirilmişdir.
B) Azərbaycan öncəki illərdə də çoxtərəfli formatda keçirilən müxtəlif tədbirlərə ev sahibliyi etmişdir.
C) Azərbaycanın rəhbər tutduğu əsas şüarı xatırlanır.
D) Bəzi xarici qüvvələr ölkəmizdə belə bir tədbirin keçirilməsi ilə barışmırdılar.
E) İlkin müzakirələrdə yardım məbləği qərar verilən məbləğdən az idi.

**3. Mətndə tünd qara hərflə verilmiş sözlə eyni mənada işlənmiş söz və ya ifadə hansı bənddədir?**

A) Regional ekoloji problemlər, xüsusilə su ehtiyatlarının azalması və hava çirkliliyi, yerli icmaların həyatını ciddi şəkildə təsir edir.
B) Sivilizasiya, insanların mədəni və sosial inkişaf səviyyəsini, eləcə də onların təşkilatlanma və qarşılıqlı əlaqələrini ifadə edən bir anlayışdır.
C) Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi.
D) Hökumət, ölkənin gələcəyini təmin etmək üçün güclü bir milli siyasət müəyyən edərək, sosial və iqtisadi inkişafı prioritetləşdirib.
E) Ölkədaxili nəqliyyat sistemi, əhalinin rahat hərəkət etməsi üçün davamlı inkişaf etdirilməlidir.

**4. Mətndə fərqləndirilmiş cümlə haqqında verilənlərdən biri yanlışdır.**
A) İki sadə cümlənin birləşməsindən yaranıb.
B) Cümlədə 3 fərqli köməkçi nitq hissəsi işlənmişdir.
C) Cümlədə qrammatik şəkilçi ixtisar edilmişdir.
D) Cümlənin yeganə mübtədası "Azərbaycan" xüsusi ismidir.
E) Cümlədə işarə əvəzliyi işlənmişdir.

**5.** *"Şair, nə tez qocaldın sən!"* **cümləsində "sən" sözünün sintaktik funksiyası nədir?**
A) xitab B) əlavə C) mübtəda
D) ara söz E) xəbər

**6. Cədvələ əsasən uyğunsuzluğu müəyyən edin.**

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1.İsimləşmiş sifət qeyri-müəyyən yiyəlik halda işlənə bilməz. | 5.Saylar yalnız ismə aid olur. |
| 2.İsmi birləşmənin əsas tərəfi feillə ifadə oluna bilər. | 6.*Gülürdü* feilini iki müxtəlif zamanda düşünmək olmaz. |
| 3. *"İndi tezdir"* - cümləsində zərf zərfə aiddir. | 7. *Nəsil* sözü I şəxsin cəminin şəxs şəkilçisini qəbul etdikdə saitini itirir. |
| 4.Qoşmalar təsriflənən feillərlə də işlənə bilir. | 8.Feilin qrammatik məna növlərinin şəkilçiləri qrammatik şəkilçilər hesab olunur. |

A) 1, 4, 6 B) 1, 2, 4, 6
C) 1, 2, 5, 6 D) 2, 3, 6
E) 4, 5, 7, 8

**7.** ***"Daş atıb başını tutmaq"*** **frazeoloji birləşməsinin mənası aşağıdakılardan hansına uyğundur?**
A) işə yaramamaq
B) böyük işlər görmək
C) nigaran qalmaq
D) hərdənbir nəsə etmək
E) qəti razılaşmamaq

**8.** *Nümayəndə heyəti ingilis və fransız dilində hazırladıqları, 50 səhifəlik kitabça formasında olan tələblərini iyun ayında sülh konfransının katibinə təqdim etdi* – **cümləsinin sintaktik təhlil sxemini müəyyən edin.**
A) təyin, mübtəda, zərflik, təyin, tamamlıq, tamamlıq, xəbər
B) mübtəda, təyin, təyin, tamamlıq, zərflik, tamamlıq, xəbər
C) mübtəda, təyin, təyin, tamamlıq, tamamlıq, zərflik, xəbər
D) mübtəda, zərflik, təyin, tamamlıq, xəbər
E) təyin, mübtəda, zərflik, təyin, tamamlıq, xəbər

**9. Bir sözün, cümlənin və ya abzasın ifadə etdiyi mənanı və ya məfhumu özündə əks etdirən sözə ........... deyilir.**
A) qeyd B) annotasiya C) mövzu
D) açar söz E) xülasə

**10. Bağlayıcılar haqqında *yanlış* fikri müəyyən edin.**
A) Tabelilik bağlayıcıları tabeli mürəkkəb cümləni təşkil edən baş və budaq cümlələri bağlayır.
B) Tabesizlik bağlayıcıları tabesiz mürəkkəb cümlənin tərəfləri arasında işlənə bilir.
C) "isə" bağlayıcısı həmcins üzvlər arasında işlənə bilmir.
D) "ilə" bağlayıcısı tabesiz mürəkkəb cümlədə işlənə bilmir.
E) Funksiyasına görə bağlayıcılar iki qrupa bölünür.

**11. " Vətənə çatanda hamı eşitdiyi bu xəbərdən vəcdə gəldi" cümləsində sintaktik əlaqənin asılı və əsas tərəfi hansı bənddə yanlış göstərilib?**

| | **asılı tərəf** | **əsas tərəf** |
|---|---|---|
| A) | vətənə | çatanda |
| B) | hamı | vəcdə gəldi |
| C) | eşitdiyi | xəbərdən |
| D) | bu | xəbərdən |
| E) | xəbərdən | vəcdə gəldi |

**12. Defis işarəsinin istafədə olunduğu məqamları müəyyənləşdirin.**
*1. ümumiləşdirici sözlər həmcins üzvlərdən sonra işləndikdə onlardan əvvəl*
*2. sözlər sətirdən-sətrə keçirildikdə*

*3. əks mənalı sözlərin iştirakı ilə yaranan mürəkkəb sözlərin yazılışında*
*4. vasitəsiz nitq dialoq şəklində qurulduqda vasitəsiz nitqdən əvvəl*
*5. rəqəmlə yazılmış say ilə -ıncı⁴ şəkilçisi arasında*

A) 2, 4, 5 B) 1, 3, 4 C) 1, 2, 5
D) 3, 4, 5 E) 2, 3, 5

**13. Cümlələrin birində isimlərdən ikisi adlıq haldadır.**
A) Xanım, bu qızıl üzük neçəyədir?
B) Mən bir oynaq bülbüləm ki, güldən gülə uçaram.
C) Qəlbi dağlar baş-başadır, o, Şəkidir, o, Şuşadır.
D) Paslanacaq mənsiz şimşək üzəngim.
E) Arif və Əşrəf dostdurlar.

**14. Söz birləşmələrinin hansının ikinci tərəfini feillə əvəz etsək, birinci tərəfin morfoloji adı dəyişməz?**
A) belə şəhər B) az adam C) iti baxışlar
D) çox kitab E) pis xasiyyət

**15. Sayın müstəqil cümlə üzvü kimi işlənmədiyi cümləni müəyyən edin.**
A) İndi sənin düşündüklərinə hər an hazır olan adam çoxdur.
B) Üçdən beşi çıxmaq mümkün deyil.
C) Yolun kənarında bir neçə kişi söhbət edirdi.
D) On beşdən böyükdür.
E) Qadın cəld addımlarla beşinci binaya daxil oldu.

**16. Bəxtiyar Vahabzadənin "Qocalar" şeirinin məzmunu ilə bağlı aşağıdakılardan biri yanlışdır:**
A) "Tutur əllərindən əl ağacları" ifadəsi ilə qocaların tənhalığı təsvir edilir.
B) Qocalar həyatlarını yaddaşlarında varaqlayaraq xatırlayırlar.
C) Şairin "fikrin nə sonu var, nə də əvvəli" ifadəsi həyatın sonsuz olduğu mənasını verir.
D) "Onlar düşündükcə boşalar, dolar," ifadəsi ilə şair düşüncənin davamlılığını göstərməyə çalışmışdır.
E) Şeirdə qocaların kitab oxumaq yerinə öz-özlərini oxuduqları göstərilir.

**17. "Durna teli" qolu ("Koroğlu") ilə bağlı hadisələrin başvermə ardıcıllığını nəzərə alaraq, nümunələri düzgün sıralayın.**

*I. Nigar xanım, sənə deyim,*
*Bu gələn Eyvaz, bu gələn.*

*II. Bizim bu Bağdadda bir paşa var. Adına Aslan paşa deyərlər. Çox namərd, çox müxənnət, çox da hiyləgər adamdı. İndi üç gündü ki, Koroğlunun üç dəlisini tutub zindana salıb.*

*III. Dəmirçioğlu ilə Bəlli Əhməd Qıratın səsinə yuxudan ayılıb gördülər ki, qoşun dörd bir yanı tutub.*

*IV. Bir atı var Alapaça,*
*Aman vermir Qırat qaça,*
*Şeşpərinin ucu haça,*
*Giziroğlu Mustafa bəy.*

*V. Koroğlu çəkər haşanı,*
*Bəylər edər tamaşanı,*
*Mən özüm Aslan paşanı,*
*Hərəniz bir xan üstünə.*

*VI.– Eyvazı, Dəmirçioğlunu, Bəlli Əhmədi Aslan paşa tutub zindana salıb. Özünü tez yetirməsən, bir də onların üzünü görməyəcəksən*

A) VI, II, V, I, III, IV B) I, VI, II, III, V, IV
C) III, VI, II, I, IV, V D) I, III, VI, II, V, IV
E) I, III, VI, V, II, IV

**18. Aşağıdakılardan hansı İmadəddin Nəsiminin "Ağrımaz" qəzəlinin xüsusiyyətlərindən biri ilə uyğun gəlmir?**
A) Əsərdə həqiqət və sevgi qarşısında insanın zəifliyi əsas mövzu kimi təqdim edilir.
B) Qəzəl şairin mənəvi yüksəlişi və insanın daxili azadlığını tərənnüm edir.
C) Bədii təzadlar və müqayisələr şeirin təsir gücünü artıran elementlərdəndir.
D) Qəzəl janrında yazılmışdır və əruz vəzninin rəməl bəhrindən istifadə edilmişdir.
E) Şair sevginin acı tərəflərini və ağrılarını lirizmlə ifadə edir.

**19. Aşağıdakı əsərlərdən heç birinə aid olmayan janr hansıdır?**

S.S. Axundov "Nurəddin"
"Dərzi şagirdi Əhməd"
M. Rzaquluzadə "Babəkin andı"
"Arıların qəzəbi"
H.Ziya "Kərgədan və Qarışqa"
"Çahargah"

A) hekayə B) nağıl C) povest
D) təmsil E) əfsanə

**20.** *"O. qısa həyat sürməsinə baxmayaraq, zəngin bir ədəbi irs qoyub getmişdir. Üç dildə şeir yazmaq qabiliyyətinə malik olan şair əsərlərinin böyük bir qismini doğma dilimizdə yazmış, ana dilinə bütün sahələrdə üstünlük vermişdir."*
**Əzizağa Məmmədov bu fikirləri hansı sənətkarımız haqqında yazmışdır?**

A) X.Şirvani B) İ.Nəsimi C) M.Füzuli
D) Q.Bürhanəddin E) Ş.İ.Xətayi

**21. Sual işarəsinin yerinə hansı əsərin adını yazmaq olar:**

| | |
|---|---|
| Əsərdə doğma təbiətin gözəlliyi, yaradıcı insanlarımıza məhəbbət ifadə olunmuşdur. | ? |
| Vətənə sonsuz məhəbbət və vətənpərvərlikdən doğan qürur hissi ifadə edilmişdir. | |
| Müəllifin başlıca niyyəti Vətənimizin tarixi, mədəniyyəti barədə oxucuda aydın təsəvvür yaratmaqdır. | |

A) B.Vahabzadə "Vətəndaş"
B) S.Vurğun "Azərbaycan"
C) X.R.Ulutürk "Gerbimiz – qəlbimiz"
D) M.Müşfiq "Yağış yağarkən"
E) M.Hadi "Türkün nəğməsi"

**22. M.Füzulinin "Söz" qəzəlinin "Olmayan ğəvvasi-bəhri-mərifət arif deyil" misrasında nə vurğulanır?**

A) Yalnız mövcud şeyləri dərk etmənin kifayət olduğu
B) Elmin və hikmətin gələcəyinin müəyyən olmadığı
C) Sözü dənizə bənzədərək orada üzməyi bilməyən kəsin dərin düşüncə sahibi ola bilməyəcəyi
D) Bir insanın hikmətə sahib olmasının sadəcə yaşla əlaqəli olduğu
E) Hikmətin heç zaman tapılmaması

**23. Mir Cəlalın "Bahar" ("Bir gəncin manifesti") əsərindəki hadisələrin ardıcıllığını nəzərə alaraq boş qalan xananı tamamlayın:**

| | |
|---|---|
| 1 | Arabaçı Baharı şəhərə, qəssab Məşədi Abbasın dükanına gətirdi. |
| 2 | Bahar küçələrin soyuq palçığını ayaqlaya-ayaqlaya küçə qapılarını gəzib həzin və saf uşaq səsi ilə çağırardı: – Ciyər alan, ay ciyər alan!... |
| 3 | ..................................................................... |
| 4 | Qəssab irəli keçib qapını basdı. Baharı eşiyə saldı. |
| 5 | Kəblə Qurban Baharı itələyib çölə saldı. |
| 6 | Anasını xəyalına gətirdi. – Ana , ay ana!... |

A) Xanım mitili - Baharın köhnə yorğanını eşiyə atdı.
B) Hamamçı maşa ilə Baharı böyründən bizləyib qovdu.
C) Konka yolunun qarını kürüyənlər bir uşaq meyiti tapdılar .
D) Qəfildən bir qara it qarını alıb götürüldü.
E) Bahar şəhərdə qalmaq, qardaşını tapmaq həvəsi ilə, həm də belə mehriban adama rast gəldiyini güman edib razı oldu.

**24.Uyğunsuzluğu müəyyən edin:**

A) Portret – təbiət təsviri
B) Tərənnüm – arzu, istəklərin obrazlı ifadəsi
C) Təsvir – təbiət mənzərəsinin sözlə ifadəsi
D) Epizod –bədii əsərin bitkin bir parçası
E) Mövzu – yazıçının diqqət mərkəzinə çəkdiyi səciyyəvi hadisələr

**25. Hansı əsərlərin yerini dəyişsək, müəllifləri düzgün olar?**

| | | |
|---|---|---|
| a | "Gerbimiz — qəlbimiz" | Xəlil Rza Ulutürk. |
| b | "Qaranquş" | Cabir Novruz |
| c | "Anamın sözləri" | Fikrət Qoca |
| d | "Mən bizim anaları Günəşlə tən tuturam" | Əliağa Kürçaylı |
| e | "Yağış yağarkən" | Mikayıl Müşfiq |

A) a-e B) b-d C) c-d
D) a-d E) b-e